<table>
<tr>
<td>

**Şamil Seyfulla oğlu Fətullayev**

**memarlıq elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü,<br>Azərbaycan SSR-nin əməkdar memarı,<br>Dövlət mükafatı laureatı,<br>Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının prezidenti**

</td>
<td></td>
</tr>
<tr>
<td colspan="2">

1928-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1953-cü ildə Azərbaycan Politexnik institutunun memarlıq-inşaat fakultəsini bitirmişdir. 1956-cı ildə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aspirantı olmuş, 1963-cü ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1990-cı ildə professor adını almışdır. Şamil Fətullayevin əsas xidməti XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid Azərbaycan memarlığının tədqiqi və təbliğidir. Onun tədqiqatları məzmunu, tədqiqat predmeti və problematikasına görə çox unikaldır. Şamil Fətullayevin rəhbərliyi altında 15-ə yaxın memarlıq üzrə fəlsəfə, 3 memarlıq doktoru dissertasiyasına rəhbərlik etmişdir. O, bir çox monoqrafiyaların, o cümlədən «XIX əsrin sonu-XX əsrin əvvəlləri Bakının yaşayış evlərinin memarlığı», «XIX əsrin sonu-XX əsrin əvvəlləri Bakının şəhərsalma memarlığı», «XIX əsrin sonu-XX əsrin əvvəlləri Azərbaycanın şəhərsalma və memarlığı», «Azərbaycan məscidləri», «Abşeron memarlığı», «Bakının memarlıq ensiklopediyası», «İran şəhərləri Qacarlar dövründə» və s. müəllifidir.

</td>
</tr>
</table>